Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Sosial şəbəkələr və fikir plüralizminin tənzimlənməsi...

## Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi

**Müasir dövrdə mətbuat və söz azadlığı cəmiyyətin və dövlətin demokratik inkişaf göstəricisi kimi qəbul olunur. Kütləvi informasiya vasitələri - qəzetlər, jurnallar, teleradiolar, informasiya agentlikləri və informasiyanın müntəzəm formada yayıldığı digər vasitələr cəmiyyətin inkişafına ciddi təsir göstərən, onun vəziyyətini və mahiyyətini müəyyənləşdirən siyasi sistemin tərkib hissəsidir.**

Kütləvi informasiya vasitələri cəmiyyətdə ictimai fikri, dövlətə inamı və sosial fəallığı formalaşdırmaqla yanaşı, həm də onları istiqamətləndirir. Bu mənada dördüncü hakimiyyət hesab olunan kütləvi informasiya vasitələri dünyada demokratiya və informasiya azadlığının mühüm vasitəsi hesab edilir.

Bu gün ölkəmizdə kütləvi informasiya vasitələrinin azad fəaliyyəti və inkişafı üçün zəruri tədbirlər görülür. Ümumbəşəri dəyərləri, demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunu özünün inkişaf modeli kimi qəbul edən Azərbaycan Respublikası insan hüquqları, söz və mətbuat azadlığının təmin edilməsi ilə bağlı mövcud olan əksər beynəlxalq konvensiya və sazişlərə qoşulub. Azərbaycan Respublikasının Konstitusiyasında informasiya azadlığı və onun təmin olunması dövlətimizin ali məqsədlərindən biri kimi təsbit edilib.

### Bizim qanunvericiliyə bununla bağlı müvafiq dəyişiklik edildi

Son illərdə bütün dünyada geniş istifadə olunmağa başlayan sosial şəbəkələr müsbət tərəfləri ilə yanaşı, cəmiyyətə mənfi təsirlərini də göstərməkdədir. Tez-tez "sosial şəbəkədə tanış olduğu yeniyetməni zorladı", "qətlə yetirdi", "sosial şəbəkə ailəni dağıtdı" və s. kimi xoşagəlməz xəbərləri izləyirik və ya kimlərinsə sosial şəbəkələrdən istifadə edərək müxtəlif radikal çağırışlar etməsinin şahidi oluruq.

Ancaq əfsuslar olsun ki, beynəlxalq təcrubədə sosial şəbəkələrin bu cür mənfi təsirlərinin qarşısının alınması üçün hər hansı konkret nümunələr yoxdur. Sosial şəbəkələrə qadağaların qoyulması isə dünya ictimaiyyəti tərəfindən birmənalı qarşılanmır, bu, insan azadlıqlarının boğulması kimi qiymətləndirilir.

Məsələyə münasibət bildirən İnformasiya Kommunikasiya Texnologiyaları (İKT) üzrə mütəxəssis Aqşin Əliyevin sözlərinə görə, sosial şəbəkələrdən yaranan problemlərin köklü şəkildə həlli praktikası dünyada mövcud deyil: "Bəzi ölkələr sosial şəbəkələri qadağan edib, amma bu da çıxış yolu deyil. Çünki insanlar artıq sosial şəbəkələrə öyrəşib, bundan istifadə edirlər. Müəyyən məsələləri inzibati yolla həll etmək olar. Məsələn, sosial şəbəkələrdə ekstremizmə, digər ağır cinayət əməllərinə çağırış edənlərin cinayət məsuliyyətinə cəlb olunması təmin edilməlidir. Təqdiredici haldır ki, bizim




qanunvericiliyə bununla bağlı müvafiq dəyişiklik edildi. Sosial şəbəkələrdə danışıq və davranış etikası ilə bağlı çox ciddi problemlər var. Bunu da söz azadlığı, fikir plürializmi adı altında edirlər. Sosial şəbəkələrdə danışıq və davranış etikasına çox ciddi riayət olunmalıdır. Amma bu məsələni təkcə qanunvericiliklə, inzibati yollarla həll etmək mümkün deyil. Yəni, bu gün inzibati metodlarla sosial şəbəkələrə yalnız müəyyən nəzarət funksiyasını həyata keçirmək olar. Bu istiqamətdə ciddi maarifləndirici addımlar da atılmalıdır. İlk növbədə uşaqları və yeniyetmələri sosial şəbəkələrin mənfi təsirlərindən qorumaq, onlara nəzarət etmək lazımdır. Onları sosial şəbəkələrdən tamamilə təcrid etmək də mümkün deyil. Valideynlər bu məsələdə məsuliyyətlərini anlamalıdırlar".

### Bəzi dövlət başçıları hətta mesajlarını sosial şəbəkələr vasitəsilə çatdırır

Ekspertin sözlərinə görə, sosial şəbəkələrdən səmərəli, məqsədyönlü, müasir dövrümüzün çağırışlarına və dövlətimizin hədəflərinə uyğun istifadə insanlara, cəmiyyətə yalnız xeyir verir: "Bəzən milli-mənəvi dəyərlərimizlə uyğunlaşmayan, daha çox şəxsi maraqları, cinayətləri, ailə-məişət, qadın və uşaq zorakılığını, etik normalardan kənar informasiyaları yaymaqla istifadəçi "ovuna" çıxan sosial şəbəkələrin başqalarının şəxsi həyatı ilə bağlı açıqlamaları insanları üzüzə qoyur. Son nəticədə narazılıq yaradan məsələlər məhkəmə salonlarında həll edilir. Bəzi sosial şəbəkələrdə Silahlı Qüvvələrimiz, şəhidlərimiz haqqında yayılan və ictimaiyyət tərəfindən qəbul olunmayan saxta, yalan informasiyalar vətəndaşlıq məsuliyyətindən kənar olmaqla müəllifə də hörmət qazandırmır.

Buna görə də istifadəçilərinin sayı yüz minlərlə ölçülən sosial platformanın sahiblərini və əməkdaşlarını ilk növbədə dövlətçilik maraqlarımızın qorunması, milli-mənəvi dəyərlərə hörmət və onlara sadiqlik, əxlaqi-etik normaların gözlənilməsi daha çox düşündürməlidir".

Bu gün hər bir sayt, televiziya sosial şəbəkədən götürdüyü məlumatı xəbər formasında oxucusuna, izləyicisinə çatdırır. Bəzi dövlət başçıları hətta mesajlarını sosial şəbəkələr vasitəsilə çatdırırlar. Sosial şəbəkələr jurnalistlər üçün mənbə sayıla bilər. Amma bununla belə, sosial şəbəkədən əldə etdiyimiz məlumatın etibarlılığını, düzgünlüyünü yenə də mütləq şəkildə dəqiqləşdirmək lazımdır.

*Məhəmmədəli QƏRİBLİ*

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**